**Milli Təhlükəsizlik və Hərbi Elmlər – National Security and Military Sciences**
**№2 (8)/2022, səh. 37-47**
***HƏRBİ-XÜSUSİ ELMLƏR*** ***MILITARY SPECIAL SCIENCES***

UOT 930

# CÜMHURİYYƏT ORDUSUNDA MİLLİ KADR SİYASƏTİNİN TƏHLİLİ

**polkovnik Atamalı Şahbazov**
*Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu*
E-mail: atamsh72@yahoo.com

***Xülasə.*** Məqalədə Cümhuriyyət Ordusunun əməliyyat-taktiki və əməliyyat-strateji səviyyədə milli kadrlarla təmin edilməsi sahəsində Azərbaycan hökumətinin və Hərbi Nazirliyin apardığı siyasət, onların əməli fəaliyyəti ilkin mənbələr əsasında ətraflı təhlil edilir, Ordunun kadr ehtiyatlarının tərkibi və inkişaf dinamikası göstərilir.

**Açar sözlər**: zabit kadrları, hərbi məmurlar, əməliyyat-taktiki səviyyə, əməliyyat-strateji səviyyə, Cümhuriyyət Hərbi Nazirliyi.

## Giriş

Ordu quruculuğu sahəsində Azərbaycan hökumətinin və Hərbi Nazirliyin apardığı siyasətin mühüm istiqamətlərindən biri milli kadrların və hərbi məmurların say üstünlüyünə nail olunması idi. Bu məsələ ordunun milli əsaslar üzərində qurulması üçün mühüm əhəmiyyət kəsb edirdi. Milli zabit kadrlarının mövcudluğu ordu daxilində hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi baxımından da vacib idi. Onların varlığı orduda milli ruhun gücləndirilməsinin əsas mənbələrindən biri ola bilərdi. Çar Rusiyası dövründə azərbaycanlıların hərbi xidmətə cəlb edilməsində müəyyən məhdudiyyətlərin olması Cümhuriyyət ordusu quruculuğu zamanı özünü nümayiş etdirdi. Milli kadrlar olmadan milli ordunun yaradılması kifayət qədər mürəkkəb bir məsələ idi. Məhz bu səbəbdən 1918-ci ilin noyabr ayında fəaliyyəti bərpa edilən Hərbi Nazirliyin rəhbərliyi ordunun qısa müddət ərzində milli zabit kadrları ilə komplektləşdirilməsi məqsədilə həm əməliyyat-taktiki, həm də əməliyyat-strateji səviyyədə konkret proqramlar həyata keçirməyə başladı.

## Cümhuriyyət ordusunun kadr ehtiyatlarının təhlili və inkişaf dinamikası

Cümhuriyyət Hərbi Nazirliyi fəaliyyətinin ilk aylarında ordunun həm əməliyyat-strateji, həm də əməliyyat-taktiki səviyyədə milli kadrlarla təminatının nizama salınması üçün xidmətdə olan zabit kadrlarının milli mənsubiyyəti, xidmət təcrübələri və bacarıqlarının müəyyən edilməsi işinə başladı. Bu zaman Hərbi Nazirliyin rəhbərliyi təklif və tələbatın bir-birini qarşılaması üçün mövcud resursların keyfiyyətinə önəm verdi. Plana əsasən ordunun birlik və birləşmələrinin formalaşdırılmasının sürətləndirilməsi, eyni zamanda döyüş və mənəvi-psixoloji hazırlığının təşkili üçün əməliyyat-taktiki səviyyədə zabit kadrlarının komplektləşdirilməsi lazım idi. Belə ki, əməliyyat-taktiki səviyyədə xidmət edəcək zabit kadrları birlik və birləşmələrinin formalaşdırılmasında, bölmələrin döyüş və mənəvi-psixoloji hazırlığının təşkilində önəmli rol oynayırdı. Cədvəl 1-dən də göründüyü kimi, 1918-ci ilin dekabr ayında orduda azərbaycanlı general və zabitlər, yalnız 196 nəfərdən ibarət idi. Bunlardan 4 nəfəri ali zabit hərbi rütbəli (generallar), 22 nəfəri isə baş zabit hərbi rütbəli (əməliyyat-strateji səviyyəli) idi.

Əməliyyat taktiki səviyyədə vəzifələri tutmalı olan kiçik zabit heyətinə aid kadrlar 178 nəfər təşkil edirdi ki, onlardan 156 nəfəri 1918-ci ilin oktyabr ayında Gəncə Praporşiklər Məktəbinin qısaldılmış kurslarını bitirmiş “podpraporşik”lər idi. Lakin buna baxmayaraq, onlar ilkin zabit “praporşik” hərbi rütbələrinə yalnız müsbət attestasiya olunduqda təyin edilə bilərdi [1, v.73]. “Podpraporşik” hərbi rütbəsini daşıyan ilkin zabit rütbələrinə namizəd hərbi qulluqçular kiçik komandir vəzifələrinin müvəqqəti icrasına buraxılmışdılar.

**Cədvəl 1. Zabit heyətinin milli mənsubiyyətinə görə say tərkibi**

| İllər üzrə / Milli mənsubiyyəti | 07.11.–31.12. 1918 | 01.01.–31.12. 1919 | 01.01.–27.04. 1920 | Yekun |
|---|---|---|---|---|
| Azərbaycanlı | 196 | 552 (356) | 791 (239) | 791 |
| Gürcü | 5 | 65 (60) | 78 (13) | 78 |
| Rus | 49 | 129 (80) | 158 (29) | 158 |
| Ukraynalı | 5 | 13 (8) | 14 (1) | 14 |
| Tatar | – | 6 | 7 (1) | 7 |
| Polyak | – | 5 | 6 (1) | 6 |
| Türk | – | 2 | 6 (4) | 6 |
| Ləzgi | – | 4 | 5 (1) | 5 |
| Osetin | – | – | 1 | 1 |
| Çeçen | – | 1 | 1 | 1 |
| Çərkəz | 1 | – | 1 | 1 |
| Avar | – | 1 | 1 | 1 |
| Yəhudi | 2 | 3 (1) | 4 (1) | 4 |
| Litvalı | 2 | 3 (1) | 3 | 3 |
| Alman | 1 | 4 (3) | 5 (1) | 5 |
| Digər | 19 | 59 (40) | 73 (14) | 73 |
| Cəmi | 280 | 847 (549) | 1154 (305) | 1154 |




**Qrafik 1. Zabitlərin milli mənsubiyyəti**

Kiçik zabit vəzifələrini tutan hərbi qulluqçular heç bir diviziyanın sıravi heyəti ilə döyüş və mənəvi-psixoloji hazırlıq və təlimin təşkil edilməsinə cavabdeh olan komanda vəzifələrinin komplektləşdirilməsinə yetəcək sayda deyildi. 1918-ci ilin sonuna doğru Cümhuriyyət Ordusunda əməliyyat-taktiki səviyyədə qeyri-azərbaycanlılar (əsasən, milliyyətcə rus zabit heyəti) çoxluq təşkil edirdi. Orduda sıravi heyətin, yəni əsgər heyətinin tamamən azərbaycanlılardan ibarət olması, komanda və danışıq dilində Azərbaycan türkcəsindən istifadə edilməsi, bu vəzifələri komplektləşdirəcək zabit heyətinin də həmin dildə danışmaq bacarığının olmasını tələb edirdi. Məhz bu səbəbdən Hərbi Nazirliyin rəhbərliyi əməliyyat-taktiki səviyyədə vəzifələrin tamamən azərbaycanlılardan və ya bu dildə danışa bilən müsəlman zabitlərdən komplektləşdirilməsi və orduda əməliyyat-taktiki səviyyədə həqiqi hərbi xidmət keçən qeyri-azərbaycanlı zabitlərin Azərbaycan əsilli zabitlərlə dəyişdirilməsini prioritet hesab edirdi. Bu baxımdan Azərbaycan türkcəsində danışa bilməyən zabitlərə dili öyrənmək üçün vaxt verilmişdi. 1918-ci ilin sonlarına doğru Azərbaycana pənah gətirmiş əməliyyat-taktiki səviyyəyə aid rütbələrdə olan (kiçik zabit heyəti) qeyri-azərbaycanlı zabitlər, əsasən, hərbi-texniki ixtisaslara (artilleriya, artilleriya mühəndisi, avtomobil, aviasiya, mühəndis, topoqrafiya və arxa cəbhə təminatı) təyin edilirdilər. Bu vəzifələr, əsasən, tabeliyində sıravi heyət olmayan vəzifələr idi. [2, s.121].

Əməliyyat-taktiki səviyyədə kiçik komandir vəzifələrini Azərbaycan əsilli zabit heyəti ilə komplektləşdirmək üçün çavuş heyəti sıralarından nizam-intizamlı, savadlı və döyüş əməliyyatlarında iştirak etmiş kadrlar seçilirdi. [3, v.13]. Onlar, Azərbaycan əsilli çavuşlar idi və kiçik zabit vəzifələrinin icrasına buraxılırdı.

Çavuş heyəti arasında savadsızlığın aradan qaldırılması məqsədilə hərbi hissələrin nəzdində orta təhsil məktəbləri fəaliyyət göstərməyə başladı. Bu məktəblər iki kateqoriyaya ayrılırdı: tabor və alay.

Tabor məktəblərinə az savadlı və ya savadsız əsgərlər seçilirdi, təhsil müddəti 4 (dörd) ay idi. Alay məktəblərinə isə daha savadlı əsgər və çavuşlar seçilirdi. Tabor məktəblərini müvəffəqiyyətlə bitirən əsgərlər növbəti 4 (dörd) aylıq təhsil üçün alay məktəblərinə göndərilirdi [4, v.17]. Bu məktəblərdə əsas məqsəd orta təhsili olmayan çavuş heyətinə, onların gələcəkdə zabit vəzifəsinə yüksəlməsini təmin edəcək təhsilin verilməsi idi.

Hərbi Nazirliyin rəhbərliyi orduda əməliyyat-taktiki vəzifələr üçün Azərbaycan əsilli kiçik zabit heyətinin komplektləşdirmə faizinin artırılması məqsədilə Gəncə Praporşiklər Məktəbindəki qısa kurslardan və təcrübəli çavuşların təhsilinin təkmilllədirilməsindən istifadə edirdi. Bununla əməliyyat-taktiki səviyyədə olan kiçik zabitlərin sayında nəzərəçarpacaq artıma nail olunmuşdu. Hərbi Nazirliyin məqsədyönlü şəkildə apardığı kadr siyasətinin nəticəsi olaraq, 1999-cu ilin sonuna əməliyyat-taktiki səviyyədə kiçik zabit vəzifələrinə 324, Cümhuriyyətin süqutuna doğru (1920-ci ilin aprel ayı) isə 233 nəfər azərbaycanlı təyin edilmişdi (Cədvəl 2).

Hərbi Nazirliyin əməliyyat-taktiki səviyyədə zabit vəzifələrinin komplektləşdirilməsi ilə bağlı apardığı kadr siyasətində müsbət irəliləyişlər olsa da, əməliyyat-strateji səviyyə (baş zabitlərlə) ilə bağlı vəziyyət ürəkaçan deyildi. Baş zabit hərbi rütbələri ilə komplektləşdirilməli olan vəzifələrə bu hərbi rütbələri daşıyan təcrübəli azərbaycanlı zabitlərin təyin edilməsində bir sıra çətinliklər mövcud idi. Bu çətinliklərin həll edilməsi və göstərilən sahədə uğur qazanılması müəyyən vaxt tələb edirdi. Belə ki, kiçik komanda vəzifələrini komplektləşdirməli olan zabit heyətinin hazırlanmasını qısa bir müddətdə həll etmək mümkün idisə, əməliyyat-strateji səviyyədəki vəzifələri komplektləşdirmək üçün müəyyən vaxt lazım idi. 1918-ci ildə 45, 1919-cu ildə 65, 1920-ci ildə isə 17 nəfər qeyri-azərbaycanlı (Azərbaycan əsilli olmayan) baş zabit əməliyyat-taktiki səviyyədə olan vəzifələrdə həqiqi hərbi xidmətdə olmuşlar (Cədvəl 2). Azərbaycanlılar arasından isə 1918-ci ildə 14, 1919-cu ildə 22 və 1920-ci ildə 4 nəfər həmin vəzifələrdə həqiqi hərbi xidmət keçirdi. Qeyri-azərbaycanlı və azərbaycanlı baş zabitləri müqayisə etdikdə azərbaycanlı baş zabitlərin azlıq təşkil etdiyini görmək mümkündür. Hərbi Nazirliyin rəhbərliyi bu kateqoriyadan olan zabitlərin say tərkibində üstünlük yaratmaq üçün komanda-qərargah vəzifələrinə daha təcrübəli kiçik zabit heyətindən olan zabitləri yerləşdirməyə başladı. Bu zaman onların ixtisası və hansı vəzifəni tutması nəzərə alınırdı. Məsələn,

Hərbi Nazirliyin strukturunda və ya diviziyaların qərargahlarında şöbə rəisi vəzifələrinə baş zabit rütbəli qeyri-azərbaycanlı təyin edildiyi zaman onun müavini və ya köməkçisi vəzifəsinə mütləq şəkildə azərbaycanlı kiçik rütbəli zabit təyin edilirdi [6, s.38–40, s.83–85]. Bununla da kiçik rütbəli milli zabit kadrlarının təcrübə toplaması, həmin ixtisaslar üzrə formalaşması və gələcəkdə əməliyyat-strateji səviyyəli vəzifəyə təyin olunması həyata keçirilirdi.

**Cədvəl 2. Milli mənsubiyyətinə görə orduya qəbul edilmiş zabit heyətinin hərbi rütbələr üzrə say tərkibi**

| Rütbə kateqoriyaları / Milli mənsubiyyəti | Ali zabit hərbi rütbəli [1] | | | Baş zabit hərbi rütbəli [2] | | | Kiçik zabit hərbi rütbəli [3] | | | Yekun |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 07.11.–31.12.1918 | 01.01.–31.12.1919 | 01.01.–27.04.1920 | 07.11.–31.12.1918 | 01.01.–31.12.1919 | 01.01.–27.04.1920 | 07.11.–31.12.1918 | 01.01.–31.12.1919 | 01.01.–27.04.1920 | |
| Azərbaycanlı | 4 | 10 | 2 | 14 | 22 | 4 | 178 | 324 | 233 | 791 |
| Gürcü | – | 5 | 1 | 2 | 10 | 4 | 3 | 45 | 8 | 78 |
| Rus | – | 2 | 1 | 19 | 34 | 9 | 30 | 44 | 19 | 158 |
| Ukraynalı | – | – | – | 2 | 4 | 1 | 3 | 4 | – | 14 |
| Tatar | – | 1 | – | – | 2 | – | – | 3 | 1 | 6 |
| Polyak | – | – | – | – | 2 | – | – | 3 | 1 | 7 |
| Türk | – | – | – | – | – | – | – | 2 | 4 | 6 |
| Ləzgi | – | – | – | – | – | – | – | 4 | 1 | 5 |
| Osetin | – | – | – | – | – | – | – | – | 1 | 1 |
| Çeçen | – | – | – | – | 1 | – | – | – | – | 1 |
| Çərkəz | 1 | – | – | – | – | – | – | – | – | 1 |
| Avar | – | – | – | – | – | – | – | 1 | – | 1 |
| Litvalı | – | – | – | – | – | – | 2 | 1 | – | 3 |
| Yəhudi | – | – | – | 2 | 1 | 1 | – | – | – | 4 |
| Alman | – | – | – | – | 1 | – | 1 | 2 | 1 | 5 |
| Digər | – | – | – | 6 | 9 | 2 | 13 | 31 | 12 | 73 |
| Cəmi | 5 | 18 | 4 | 44 | 84 | 20 | 152 | 541 | 282 | 1154 |

[1] Ali zabit hərbi rütbələri – tam general (qoşun növü üzrə), general-leytenant, general-mayor.
[2] Baş zabit hərbi rütbələri – polkovnik, podpolkovnik, kapitan, rotmistr, yesaul.
[3] Kiçik zabit hərbi rütbələri – ştabs-kapitan, ştabs-rotmistr, podyesaul, poruçik, sotnik, podporuçik, kornet, xorunjiy, praporşik [5, s. 44].




**Qrafik 2. Hərbi rütbələr üzrə say tərkibi**

Hərbi Nazirliyin milli zabit kadrları ilə bağlı apardığı kadr siyasətində nəzərəçarpacaq irəliləyişlər əldə etmək mümkün olsa da, milli hərbi məmurların orduya cəlb edilməsi sahəsində bir sıra çətinliklər özünü göstərməkdə idi. Belə ki, 1918-ci ilin sonu 82 hərbi məmurdan 17-si, 1919-cu ildə 287-dən 89-u, 1920-ci ildə isə 406 nəfərdən 127-si azərbaycanlı olmuşdur (Cədvəl 3).

**Cədvəl 3. Hərbi məmurların milli mənsubiyyətinə görə say tərkibi**

| İllər üzrə / Milli mənsubiyyəti | 07.11.–31.12. 1918 | 01.01.–31.12. 1919 | 01.01.–27.04. 1920 |
|---|---|---|---|
| Azərbaycanlı | 17 | 89 (72) | 127 (38) |
| Gürcü | 1 | 5 (4) | 6 (1) |
| Rus | 33 | 79 (46) | 100 (21) |
| Ukraynalı | 8 | 14 (6) | 18 (4) |
| Litvalı | 1 | 2 (1) | 2 |
| Yəhudi | 1 | 9 (8) | 12 (3) |
| Alman | – | 4 | 5 (1) |
| Digər | 21 | 85 (64) | 136 (51) |
| Yekun | 82 | 287 (205) | 406 (119) |




**Qrafik 3. Məmurların milli mənsubiyyəti**

Orduda azərbaycanlı hərbi məmurların tutduqları vəzifələrin təhlili onu göstərir ki, azərbaycanlılar əsasən molla və imam vəzifələrində olmuşlar. Bu da, təbii bir hal idi. Çünki dini mənsubiyyət bu vəzifələrə, əsasən, azərbaycanlı molla və imamların təyin olunmasını tələb edirdi. Bu vəzifələri tutmaq üçün ali ixtisas təhsilinə ehtiyac yox idi. Həmin vəzifələrə dini təhsili olan və Ruhani idarəsinin dini mərasimləri həyata keçirməyə icazə verdiyi adamlar təyin edilə bilərdilər [7, s.13]. Həkim, feldşer, baytar və inzibati-təsərrüfat vəzifələrinə isə bu sahə üzrə ixtisas təhsili olan şəxslər təyin edilməli idi. Baytar və feldşer vəzifələrinə milli kadrların təyin edilməsi üçün Hərbi Nazirliyin rəhbərliyi Gəncədə 1-ci Artilleriya briqadasının 1-ci yüngül artilleriya divizionunun tərkibində 13 və Xankəndində Süvari diviziyasının 2-ci Qarabağ süvari alayının tərkibində 12 nəfərlik iki Hərbi baytar feldşerləri məktəbinin [8, v.41], Şuşada isə 6 aylıq Feldşerlər məktəbinin yaradılması haqqında sərəncamlar vermişdi [9, v.201]. Bu məktəblərə bacarıqlı əsgər və çavuş heyəti sırasından namizədlər seçilməsi həyata keçirilirdi, lakin həmin vəzifələrin tam milli kadr heyəti ilə komplektləşdirilməsi ləng gedirdi. Belə ki, əsgər və çavuş heyəti sırasından ən azı orta təhsili olan şəxslər bu ixtisaslar üzrə təhsil ala bilərdilər. Azərbaycanlıların Çar Rusiyasında təhsilalma imkanlarının məhdud olması bu problemin sürətli həllini ləngidirdi. Hərbi Nazirliyin rəhbərliyinin hərbi hissələrin tərkibində yaratdığı məktəblər isə yenicə fəaliyyətə başlamışdı.

Digər bir tərəfdən orta təhsilli və ya heç olmasa, yazıb oxumağı bacaran sıravi heyət, əsasən, kiçik zabit vəzifələrinə namizəd kimi seçilirdi. Bütün bunları nəzərə alaraq, Hərbi Nazirliyin rəhbərliyi Azərbaycandan olan ali təhsilli rusları, yəhudiləri və almanları inzibati-təsərrüfat və həkim vəzifələrinə təyin etməyə başladı. Bu kateqoriyadan olan heyət azərbaycanlı olmasa da, bu ərazidə doğulduqları üçün yerli adət-ənənələri bilirdilər və daimi olaraq Azərbaycanda yaşayırdılar. Hərbi Nazirliyə aid arxiv sənədlərinin və əmrlər toplusunun təhlili göstərir ki, qeyri-azərbaycanlı hərbi məmurların böyük qismi sədaqətlə Azərbaycan Xalq Cümhuriyyətinə xidmət etmişlər. Cədvəl 4-dən də göründüyü kimi, xidməti vəzifələrinin icrası zamanı qeyri-döyüş şəraitində və ya döyüş şəraitində həlak və şəhid olan hərbi məmurların arasında qeyri-azərbaycanlı hərbi məmurlar çoxluq təşkil edir. Belə ki, həlak və ya şəhid olan 10 hərbi məmurdan 8-i qeyri-azərbaycanlı hərbi məmur olmuşdu.

**Cədvəl 4. Qeyri-döyüş şəraitində həlak olmuş hərbi məmurların (qaytarılmaz itkilərin) say tərkibi**

| Xidmət yerləri / Milli mənsubiyyəti | Hərbi Nazirlik | Xankəndi lazareti | Gəncə lazareti | 1-ci piyada diviziyası | 1-ci Cavanşir piyada alayı | 3-cü Gəncə piyada alayı | 4-cü Quba piyada alayı | 1-ci Artilleriya briqadası | Yekun |
|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycanlı | 1 | – | – | – | – | – | 1 | – | 2 |
| Ukraynalı | – | – | – | – | – | 1 | – | – | 1 |
| Rus | – | 2 | 1 | 2 | 1 | – | – | 1 | 7 |
| Cəmi | 1 | 2 | 1 | 2 | 1 | 1 | 1 | 1 | 10 |

Zabit heyətinin qaytarılmaz itkilərində isə əksinə azərbaycanlılar çoxluq təşkil etmişdi. Bu da təbii hal idi. Çünki döyüş əməliyyatlarında əməliyyat-taktiki səviyyədə kiçik komandir heyəti birbaşa döyüşü idarə edir və daimi ön xətdə sıravi heyətlə birgə xidmət aparırdı. Bu vəzifələrdə də əsasən azərbaycanlılar xidmət edirdi. Cədvəl 5-də göstərildiyi kimi, 07 noyabr 1919-ci il tarixdən 28 aprel 1920-ci il tarixədək həlak və ya şəhid olan azərbaycanlı zabitlər 17, qeyri-azərbaycanlı zabitlər isə 2 nəfər təşkil edirdi.

**Cədvəl 5. Qeyri-döyüş şəraitində həlak olmuş zabit heyətinin (qaytarılmaz itkilərin) say tərkibi**

| Hərbi rütbələri / Milli mənsubiyyəti | kapitan | ştabs-rotmistr, ştabs-kapitan | kornet | praporşik | Yekun |
|---|---|---|---|---|---|
| Azərbaycanlı | – | 1 | 2 | 14 | 17 |
| Gürcü | 1 | – | – | – | 1 |
| Polyak | – | 1 | – | – | 1 |
| Cəmi | 1 | 2 | 2 | 14 | 19 |

Cümhuriyyət Ordusunda xidmət edən zabit və hərbi məmurların 07 noyabr 1918-ci il tarixdən 28 aprel 1920-ci il tarixədək olan dövrdə xidmətləri təhlil edilərkən onların xidmətdən ayrılma səbəblərinə də diqqət yetirilməlidir. Çünki ordudan ayrılma həm keyfiyyət həm də kəmiyyət baxımından ordunun komplektləşdirilməsinə təsir edən amillərdəndir. Hərbi Nazirin əmrlərində general və zabit heyətinin "öz arzusuna", "xəstəliyə", "ailə vəziyyətinə", "vəfat etdiyinə", "həlak olduğuna", "digər qurumlara keçdiyinə", "xidmət yerinə gəlmədiyinə", "xidməti uyğunsuzluğa" və "məhkum olunduğuna" görə Cümhuriyyət Ordusundan ayrılmaları qeyd edilmişdir. Cədvəl 6 və qrafik 4-də olduğu kimi, 171 general və zabit heyəti qeyd edilən səbəblərə görə Cümhuriyyət Ordusundan ayrılmışdı. Tərxis olunan azərbaycanlı general və zabit heyətinin ayrı-ayrılıqda əmrlərinin təhlili göstərir ki, azərbaycanlı general və zabit heyəti 07 noyabr 1918-ci il – 28 aprel 1920-ci illər ərzində cəmi 61 nəfər olmuşdu. Həmin 61 nəfərin 25-i öz arzusu ilə, 4 nəfəri xəstəliyə, 1 nəfəri ailə vəziyyətinə, 17 nəfəri həlak və ya şəhid olduğuna, 3 nəfəri xidmət yerinə gəlmədiyinə, 5 nəfəri xidməti uyğunsuzluğa, 6 nəfər isə məhkumluğa görə ordudan tərxis edilmişdi. Digər millətlərdən olan hərbi qulluqçularda isə bu nisbət bir qədər fərqli idi. Belə ki, 78 nəfər öz arzusu ilə, 1 nəfər xəstəliyə, 1 nəfər digər quruma keçdiyinə, 9 nəfəri həlak və ya şəhid olduğuna, 6 nəfər xidmət

yerinə gəlmədiyinə, 8 nəfər xidməti uyğunsuzluğa, 7 nəfər isə məhkumluğa görə ordudan tərxis edilmişdi (Cədvəl 6, Qrafik 4).

**Cədvəl 6. General və zabitlərin tərxis olunma səbəbləri haqqında məlumat**

| Milli mənsubiyyəti / Tərxis olma səbəbi | Azərbaycanlı | Gürcü | Rus | Ukraynalı | Tatar | Polyak | Çərkəz | Alman | Digər | Yekun |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Öz arzusu ilə | 25 | 13 | 43 | 3 | 2 | 1 | – | 1 | 15 | 103 |
| Xəstəliyə görə | 4 | – | – | – | 1 | | – | – | – | 5 |
| Ailə vəziyyətinə görə | 1 | – | – | – | – | – | – | – | – | 1 |
| Vəfat etdiyinə görə | 2 | 2 | 1 | – | 1 | – | – | – | – | 6 |
| Həlak olduğuna görə | 15 | 1 | 2 | – | – | 1 | – | – | 1 | 20 |
| Digər qurumlara keçdiyinə görə | – | – | – | – | – | – | 1 | – | – | 1 |
| Xidmət yerinə gəlmədiyinə görə | 3 | 2 | – | – | – | – | – | – | 4 | 9 |
| Xidməti uyğunsuzluğa görə | 5 | 2 | 5 | – | – | – | – | – | 1 | 13 |
| Məhkum olunduğuna görə | 6 | 1 | 1 | – | – | – | – | – | 5 | 13 |
| Cəmi | 61 | 21 | 52 | 3 | 4 | 2 | 1 | 1 | 26 | 171 |




**Qrafik 4. General və zabitlərin tərxis olunma səbəbləri**

Ehtiyata buraxılanları təhlil etdikdə ruslardan sonra azərbaycanlı zabitlərin daha çox öz arzusu ilə ehtiyata buraxıldığını görmək olur. Təhlillər göstərir ki, rus və digər millətlərdən olan zabit heyəti zabit kadrlarına qarşı irəli sürülən tələblərə və yerli şəraitə uyğunlaşa bilmədiklərinə görə xidmətdən ehtiyata buraxılmaq üçün müraciət etmişlər. Hərbi Nazirliyin rəhbərliyi humanizm göstərərək

qaydalara zidd də olsa nizam-intizamlı və qüsursuz xidmət edən qeyri-azərbaycanlı zabit heyətinin bu müraciətlərinə müsbət mövqe nümayiş etdirmiş və onların “xidməti uyğunsuzluqla” deyil, “öz arzusuna görə” ehtiyata buraxılmasına razılıq vermişdir. Digər bir tərəfdən ehtiyata buraxılan əməliyyat-strateji səviyyəli yuxarı rütbəli zabitlərin müavin və ya köməkçiləri kimi həqiqi hərbi xidmətdə olan azərbaycanlı zabitlər həmin dövrə kimi təcrübə topladıqları üçün ehtiyata buraxılan qeyri-azərbaycanlı zabitlərin vəzifələrini icra etməyə başlamışdılar. Bu siyasətin məqsədli şəkildə aparıldığı qənaətinə gəlmək olar. Hərbi nazirin əmrlər toplusunu təhlil edərkən “öz arzusu ilə” ehtiyata buraxılan Azərbaycanlı zabitlərin ehtiyata buraxılmasının dəqiq səbəblərini müəyyən etmək mümkün olmamışdır. Belə ki, ehtiyata buraxılma ilə əlaqədar əmrlərdə bu barədə qeydlər edilməmişdir. Mərkəzi Dövlət Arxivində saxlanılan xidmət dəftərçələrində də həmin zabitlərin öz arzusu ilə tərxisolunma səbəbləri barədə məlumat tapmaq mümkün deyil.

Cədvəl 6 və qrafik 4-ə baxdıqda “öz arzusu ilə” yanaşı, “xidməti uyğunsuzluğa” və “məhkumluğa görə” tərxis edilən hərbi qulluqçuların ümumi tərxis edilənlərə nisbətən daha çox olduğunu görmək olar. Cədvəl və qrafikə əsasən xidməti uyğunsuzluğa və məhkumluğa görə 11 azərbaycanlı, 15 nəfər isə qeyri-azərbaycanlı tərxis olunmuşdur. Bu da orduda nizam-intizamın artırılması, hərbi xidmətin nüfuzunun yüksəldilməsi, döyüş qabiliyyətinin və peşəkarlığının artırılması məqsədilə intizamsız və xidməti vəzifələrinə səhlənkar yanaşan zabitlərə qarşı çox ciddi tələblər olduğunun göstəricisidir. Zabit kadrlarına, xüsusilə də milli kadrlara kəskin ehtiyac olduğu halda belə, intizamsız və məsuliyyətsiz zabitlərin milli mənsubiyyətindən asılı olmayaraq ordudan uzaqlaşdırılması Cümhuriyyət Hərbi Nazirliyinin ordunun döyüş qabiliyyətinin və peşəkarlığının artırılması istiqamətində nə qədər israrlı olmasına dəlalət edir.

Hərbi məmurların tərxis olunmaları barədə statistik məlumatları təhlil etdikdə isə fərqli nəticələri görmək mümkündür. Belə ki, cədvəl 7-yə baxdıqda hərbi məmurlar üzrə milli mənsubiyyətinə görə 07 noyabr 1918-ci il tarixdən 27 aprel 1920-ci il tarixədək ordudan 102 nəfər tərxis olunmuşdur. Onlardan 33 nəfəri azərbaycanlı, 69 nəfəri isə qeyri-azərbaycanlı olmuşdur. azərbaycanlılardan 18 nəfər “öz arzusu ilə”, 6 nəfər isə “xidmət yerinə gəlmədiyinə görə” ordudan tərxis edilmişdir. Hərbi nazirin əmrlərinin təhlili göstərir ki, “öz arzusu ilə” tərxis olunan milli hərbi məmurların böyük əksəriyyəti molla və imamlar olmuşdur.

**Cədvəl 7. Hərbi məmurların tərxisolunma səbəbləri haqqında məlumat**

| Milli mənsubiyyəti / Tərxis olma səbəbi | Azərbaycanlı | Gürcü | Rus | Ukraynalı | Yəhudi | Litvalı | Alman | Digər | Yekun |
|---|---|---|---|---|---|---|---|---|---|
| Öz arzusu ilə | 18 | 4 | 14 | 3 | 4 | 1 | – | 22 | 66 |
| Xəstəliyə görə | – | – | 4 | – | – | | – | – | 4 |
| Ailə vəziyyətinə görə | 1 | – | – | – | – | – | – | – | 1 |
| Vəfat etdiyinə görə | 2 | – | 5 | 1 | – | – | – | 1 | 9 |
| Həlak olduğuna görə | – | – | 2 | – | – | – | 1 | – | 3 |
| Digər qurumlara keçdiyinə görə | 2 | – | – | – | – | – | – | – | 2 |
| Xidmət yerinə gəlmədiyinə görə | 6 | – | – | – | – | – | – | 3 | 9 |
| Xidməti uyğunsuzluğa görə | 1 | – | 4 | – | – | – | – | – | 5 |
| Hərbi xidmətə çağırıldığına görə | 1 | – | – | – | – | – | – | – | 1 |
| İstintaq altında olduğuna görə | 2 | – | – | – | – | – | – | – | 2 |
| Cəmi | 33 | 4 | 29 | 4 | 4 | 1 | 1 | 26 | 102 |

Hərbi nazir tam artilleriya generalı Səməd bəy Mehmandarov bilirdi ki, birlik və birləşmələrin şəxsi heyətinin mənəvi cəhətdən kamilləşməsində dini dəyərlərin xüsusi yeri var. Dini dəyərlərə ehtiramla yanaşılması əslində ordu ilə xalq arasında bağlılığın gücləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edirdi. Bu məqsədlə, Hərbi nazir orduya qəbul edilən din xadimlərinin qarşısında duran başlıca vəzifənin şəxsi heyətin dini-mənəvi tərbiyəsi olduğunu vurğulayır və bununla bağlı tələb edirdi ki, həmin vəzifələrə nail olmaq üçün, ilk növbədə din xadimləri özləri qanunun bütün tələblərini nümunəvi yerinə yetirsinlər. Sınaq müddəti ərzində qoyulan tələblərə cavab verə bilməyən molla və imamlar isə ordudan uzaqlaşdırılırdı [7, s.13]. Xidmət yerinə gəlmədiyi üçün ordunun siyahılarından çıxarılanlar arasında molla və imamlarla yanaşı, həkim ixtisası üzrə azərbaycanlı hərbi məmurlar da var idi [10, v.22, 147]. Digər millətlərdən olan 69 hərbi məmur da sınaq müddətində özlərini doğrultmadığı və ya onlara qarşı irəli sürülən tələblərə cavab vermədikləri üçün ordudan tərxis edilmişdirlər.

Ümumiyyətlə, zabit və hərbi məmurlar üzrə tərxis edilənlərin statistik təhlili onu göstərir ki, orduda zabit və hərbi məmurlara böyük ehtiyac olsa da, milli mənsubiyyətindən asılı olmayaraq həmin kateqoriyadan olan kadrların fəaliyyətinə komandir və rəisləri tərəfindən ciddi nəzarət edilmiş, tələblərə cavab verməyən və nizam-intizamsız kadrlar ordudan uzaqlaşdırılmışdı. Onların peşəkar kimi yetişdirilməsi, hərbi andlarına sadiq qalmaları daimi diqqət mərkəzində saxlanılmışdı.

## Nəticə

Cümhuriyyət Ordusunda kadrların statistikası və dinamikası üzrə təhlillərə əsasən belə bir nəticəyə gəlmək olar ki, Cümhuriyyət hökuməti və Hərbi Nazirlik ölkənin müdafiəsi və onun suverenliyinin qorunması üçün ordunun qısa müddət ərzində vətəninə və xalqına sadiq milli kadrlarla təmin olunması istiqamətində uyğun kadr siyasəti yürütmüşdür. Həmin kadr siyasətinin tərkib hissəsi olaraq, orduda xidmət edən zabit və hərbi məmurların karyera inkişafının təkmilləşdirilməsi, hərbi xidmətdə olanların xidmətlərinin qanunla nizamlanması, sosial ədalətli sistemin işlək hala gətirilməsi kimi amillərə diqqəti artırmaqla orduda mənəvi mühitin saflaşmasına çalışılmışdır. Görülən bu fəaliyyətlər nəticəsində 1920-ci ilin aprel işğalı ərəfəsində Cümhuriyyət Ordusunda milli kadrlar həm əməliyyat, həm də strateji səviyyədəki vəzifələrdə üstünlük təşkil etmişdir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Hərbi Nazirliyi // Azərbaycan Respublikasının Mərkəzi Dövlət Arxivi, Fond № 2894, siyahı №1, iş № 3, vərəq – 73.
2. Şahbazov, A. Cümhuriyyət ordusunda milli kadr siyasəti // – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universiteti, Tarix, insan və cəmiyyət Elmi-nəzəri və elmi-metodik jurnal, – 2020. № 2(29), – s. 112-123.
3. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Hərbi Nazirliyi // Azərbaycan Respublikasının Mərkəzi Dövlət Arxivi, Fond № 2894, siyahı №1, iş № 4, vərəq – 13.
4. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Maarif Nazirliyi // Azərbaycan Respublikasının Mərkəzi Dövlət Arxivi, Fond № 51, siyahı №1, iş № 153, vərəq – 17.
5. Шунков, В.Н. Русская императорская армия / В.Шунков. – Москва: Хранитель, – 2008. – 320 с.
6. Шахбазов, А. Сборник приказов по военному ведомству Азербайджанской Демократической Республики: [в 3 томах] / состав. А.Шахбазов. – Баку: Маариф, – т.1. – 2018. – 504 с.
7. Şahbazov, A. Azərbaycan Xalq Cümhuriyyəti ordusunda dini məsələlər // Cəmiyyət və Din, – 2018. iyul. – s.13.
8. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Hərbi Nazirliyin Baş Qərargahının Baş idarəsi // Azərbaycan Respublikasının Mərkəzi Dövlət Arxivi, Fond № 2898, siyahı №2, iş № 5, vərəq – 41.

9. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Hərbi Nazirliyi // Azərbaycan Respublikasının Mərkəzi Dövlət Arxivi, Fond № 2894, siyahı №1, iş № 3, vərəq – 201.

10. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Hərbi Nazirliyi // Azərbaycan Respublikasının Mərkəzi Dövlət Arxivi, Fond № 2894, siyahı №1, iş № 5, vərəq – 22; Fond 2894, siyahı №1, iş № 4, vərəq – 147.

**Аннотация**
**Анализ национальной кадровой политики в Армии Азербайджанской Демократической Республики**
**Атамалы Шахбазов**

В статье на основе первоисточников подробно анализируется деятельность Правительства Азербайджанской Демократической Республики и Министерства обороны в области национальной кадровой политики и обеспечения армии национальными кадрами как на оперативно-тактическом, так и оперативно-стратегическом уровнях, также показан кадровой состав армии и развитие национального кадрового персонала.

**Ключевые слова**: офицерский состав, национальные офицеры, оперативно-тактический уровень, оперативно-стратегический уровень, Военное ведомство.

**Abstract**
**The analysis of national cadre policy in the Army of Azerbaijan Democratic Republic**
**Atamali Shahbazov**

The article analyzes in detail based on primary sources the activities of the Government of the Democratic Republic of Azerbaijan and the Ministry of Defense in the field of national personnel policy at both operational and tactical and strategic levels, shows the structure of the army and the development of the army's national human resources.

**Keywords**: officers, national human resources operational-tactical level, operational-strategic level, Ministry of defence.

*Məqalə redaksiyaya daxil olmuşdur: 29.03.2022*
*Təkrar işlənməyə göndərilmişdir: 11.04.2022*
*Çapa qəbul edilmişdir: 02.05.2022*